# Elektron məlumat bazası kitabxananın saytında yerləşdirilib




**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında görkəmli alim, ictimai xadim, Respublika Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyi münasibətilə elektron məlumat bazası hazırlanıb.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, elektron bazada görkəmli alimin həyatı, elmi və ictimai fəaliyyəti haqqında geniş məlumat verilib. Burada alimin Azərbaycan, rus və ingilis dilində çap edilən əsərlərinin, dövrü mətbuat materiallarının, haqqında qələmə alınan kitab və məqalələrin siyahısı əks olunub. Zərifə xanım haqqında görkəmli şəxslər tərəfindən söylənilən fikirlərin yer aldığı elektron bazada akademikin dünya kitabxanalarında saxlanılan nəşrlərinin siyahısı da təqdim edilib. Məlumat bazasında "Xatirəsinin əbədiləşdirilməsi", "Fotoqalereya", "Videoqalereya" bölmələri ilə yanaşı, görkəmli alim haqqında qələmə alınan "Ürəklərdə izi var" və "Unudulmaz alim, mehriban ana, qayğıkeş insan" adlı məqalələrin tam mətni də yerləşdirilib. Zərifə xanım Əliyevanın 100 illlik yubileyi ilə əlaqədar hazırlanan elektron məlumat bazası kitabxananın rəsmi saytında linkində yerləşdirilib.


Azərbaycan.- 2023.-29 aprel.- S.8.